# Vətənə sevdalanıb, adını tarixə yazan qəhrəman

**Gündüz Abdullayev haqq-savaşımızda qanı bahasına bizə qələbə sevinci yaşadan qəhrəman Vətən sevdalısıdır. Gündüz uşaqlıqdan canı qədər sevdiyi doğma Azərbaycanın daşına, torpağına vurğun böyümüşdü. Həyatı dərk edən gündən isə əsas arzusu erməni dığalardan qisas almaq olub. Hətta bu yolda şəhid olmağı belə özünə müqəddəs iş sayıb.**

Odur ki, Vətənin harayına birincilər sırasında getməklə son damla qanına qədər yağıya qarşı mərdliklə döyüşüb. Gündüz cismən aramızdan getsə də, əsir Qarabağımızın xilaskar ərəni kimi tarixin yaddaşında iz qoyaraq milyonların ürəyində əbədi olaraq özünə məkan qurub. İllər keçəcək onun ömür yolu gələn nəsillər üçün də örnək olacaq.

El-obada əsl övlad məhəbbəti ilə sevilən, Vətənin yaşaması naminə canını əsirgəməyən Gündüz Çingiz oğlu 1999-cu ildə Biləsuvar rayonunun Zəhmətabad kəndində dünyaya göz açıb. O, orta məktəbi bitirib bir başa Vətənin keşiyinə yollanıb. Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayıb. Nümunəvi əsgər olaraq komandirlərin verdiyi tapşırıqlarını vicdanla yerinə yetirib. Qatıldığı təlimlərdə bir qayda olaraq mərdlik, fədakarlıq göstərib. Yağıya hədsiz nifrət hissi, ondan alacağı öcə görə həyatını hərbiyə bağlayıb. Həqiqi xidmətdən sonra, yeni 2020-ci ildən hərbi qulluqçusu kimi fəaliyyətini davam edib. Hə əməlinin əsasında da torpaq, Vətən sevgisi durub. Yağı tapdağında qalan Qarabağımızın azadlığını düşünməklə hərbin sirlərinə mükəmməl yiyələnib. Ürəyi Vətəni düşməndən qoruyaraq, ona layiqli oğul olmaq eşqi ilə döyünüb. Və əsgər yoldaşlarına, komandirlərinə məqamı gələn anda bu müqəddəs işdə gözünü qırpmadan canından keçməyə hazır olduğunu bildirib.



2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın ölkəmizə qarşı başladığı növbəti hərbi təxribata cavab olaraq 44 günlük haqq savaşımızda Gündüz düşmənə ilk sarsıdıcı zərbəni vurub. Nəticədə Ermənistan ordusu böyük itkilərlə üzləşib. Erməni dığaların kabusuna çevrilən igid əsgər daha sonra Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Ağır, qeyri-bərabər müharibə meydanında Gündüz qabaqda olmaqla adəti üzrə yüksək şəxsi rəşadət və şücaət nümayiş edib. Özü şəhid olsa da, Qarabağımızın sinəsinə daha bir qələbə bayrağımız saçılıb. Bu eləcə Vətənimizin müdafiəsi uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalan Gündüzün qısa ömrünə şərəf, qürur qatıb. Prezident İlham Əliyevin sərəncamları əsasında isə şəhid Gündüz Abdullayev göstərdiyi igidliyə, fədakarlığa və vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medallarına layiq görülüb.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**